STP ŞİRKƏTLƏR QRUPU




# ELEKTRİK AVADANLIQLAR

www.stp.az


STP



# MÜNDƏRİCƏT


02 ÜMUMİ MƏLUMAT

04 GÜCLÜ TƏRƏFLƏRİMİZ

05 MƏHSULLAR

06 GENERATOR

07 TERMİNAL

12 KARQOMATİK

13 ELEKTRİK YUVALARI

14 MODUL TİPLİ YUVALAR

17 ELEKTRİK DOLABLARI

19 SAYĞAC DOLABLARI

20 KABEL KANALLARI

21 KEYFİYYƏTƏ NƏZARƏT

# ELEKTRİK AVADANLIQLARI

## İSTEHSAL ZAVODU

STP Şirkətlər Qrupunun **elektrik avadanlıqları zavodu** 2010-cu ildən etibarən tam istehsal gücü ilə fəaliyyət göstərir.

Burada Avropa standartlarına uyğun və müasir tələblərə cavab verən istehsal prosesində yüksək keyfiyyətli məhsullar istehsal olunur.

Məhsullar müasir texnologiyaların tətbiqi ilə **kompüter sistemi vasitəsilə** idarə olunan dəzgah və avadanlıqlarda istehsal edilir. STP Şirkətlər Qrupunun **Elektrik Avadanlıqları Zavodunda** 2011-ci ildən etibarən *MVC tipli modul yuvalar, AGED tipli alçaq gərginlikli elektrik dolabları, müxtəlif təyinatlı terminallar və kabel kanalları* istehsal edilir.

Hazır məhsulların yekun sınaqları ABŞ istehsalı olan sınaq avadanlıqları ilə təchiz edilmiş və akkreditə olunmuş laboratoriyada həyata keçirilir.



## İSTEHSAL GÜCÜ

ELEKTRİK AVADANLIQLAR

**2 000** ton/il



## SAHƏLƏR

Elektrik avadanlıqlarının istehsalı

Kabel istehsalı

Elektrik çubuqlarının istehsalı

## SEKTORLAR

NEFT VƏ QAZ

İNŞAAT

KƏND TƏSƏRRÜFATI

ENERJİ

## İXRAC

- UKRAYNA
- RUSİYA

## AVADANLIQLAR

FINN POWER • Finlandiya

TRULAZER 3030NEV • Almaniya

YAKUT MAKİNA SİSTEM-TEXNİK • Türkiyə

MVD B060 BENDING MACHINE • Türkiyə

MVD B135 BENDING MACHINE • Türkiyə

MVD CH30/120 BENDING MACHINE • Türkiyə

MVD CH12/040 BENDING MACHINE • Türkiyə

MVD HGL 3006 SHEARING MACHINE • Türkiyə

TRUBEND 5130 BENDING MACHINE • Almaniya

# GÜCLÜ TƏRƏFLƏRİMİZ VƏ ÜSTÜNLÜKLƏRİMİZ

## Elektrik avadanlıqları

İstehsal prosesi Beynəlxalq standartların tələblərinə uyğun olaraq yüksək səviyyədə təşkil edilmişdir. Məhsullar Almaniya, Finlandiya, Türkiyə şirkətlərindən alınmış proqramlaşdırılmış kompüter sistemi vasitəsi ilə idarə olunan dəzgah və avadanlıqlar ilə istehsal olunur.

Elektrik avadanlıqları zavodunda **“SCHNEIDER ELECTRIC”** şirkətinin lisenziyası əsasında **NEX 17.5**, **SM6-24**, **SM 6-36 seriyalı** modul tipli yuvalar istehsal edilir. Həmin şirkətin lisenziyası ilə istehsal edilən məhsulların Azərbaycan və MDB məkanında analoqu yoxdur.

EAZ məhsulları dünya standartlarına tam cavab verir. Belə ki, müəssisədə **İSO 9001:2008**, **OHSAS 18001:2007**, **Schneider Electric Certificate**, Rusiya və MDB ölkələrində tələb edilən **ГОСТ** standartları mövcuddur.



# MƏHSULLAR



### MVC modul tipli yuvalar

MVC IC 12 / MVC OC 12 / MVC CC 12 / MVC FC 12 / MVC MC 12 / MVC IC 36 / MVC OC 36 / MVC CC 36 / MVC FC 12 / MVC MC 36



### MVC paylayıcı yuvalar



### Müxtəlif təyinatlı dolablar və qutular



### AGED (alçaq gərginlikli elektrik dolabları)

AGED 1 / AGED 2 / AGED 3 / AGED 4 / AGED 5 / AGED 6



### Bir və çoxyerli sayğac dolabları

1, 2, 6, 8, 10, 12, 16 yerli sayğac dolabları istehsal



### Ödəniş terminalları



### Məlumat terminalları



### Gözləmə terminalı



### Generator



### Kabel kanalları

SƏNAYE TİPLİ

# GENERATOR

Sənaye tipli generatorlar **24 saat fasiləsiz** istifadə üçün nəzərdə tutulmuşdur. Onun da uzun illər rəvan işləmə prinsipi var. Sənaye tipli generatorlarda iki mühüm hissə var. Bunlar mühərrik və alternatordur. Generator istehsalçıları öz istəklərinə uyğun olaraq müxtəlif mühərrik və alternator markaları ilə işləyirlər.

Bu generatorlar çox vaxt yüksək səs-küy yaradır. Bu səbəbdən səs izolyasiya şkafları ilə birlikdə istifadə olunur. Sənaye tipli generatorlar aşağı **(400 volt)** gərginlikli generatorlar şəklində istehsal edilir. Evlər və iş yerləri üçün uyğun olan generatorlar aşağı gərginliyə malikdir.

Bu tip generatorlar **15 kVA-400 kVA** gücündə istehsal edilir. Nəzarət və paylayıcı lövhələr generatorlar üçün çox vacibdir. İdarəetmə panelləri sayəsində generatorun avtomatik və ya əl ilə işləməsi, elektrik dəyərlərinin monitorinqi və ya nasazlıqların aşkarlanması üçün istifadə edilə bilər.

Generatorlara istəyə bağlı olaraq aşağıdakı avadanlıqlar daxil ola bilər :

Sinxronizasiya paneli / Əlavə yanacaq çəni / Qızdırıcı / Səsboğucu / Səs izolyasiya edən kabin






# ÖDƏNİŞ **TERMİNALI**

Bu növ terminallar həm nağd, həm də nağdsız ödənişlərin qəbulu üçün nəzərdə tutulmuşdur. Hazırlanmasında adi və ya sinklənmiş polad lövhələrdən istifadə olunur. Lövhələr hazır sinklənmiş formada alınır. Həmçinin sifarişdən asılı olaraq müəssisə daxilində sinklənə bilir.

**İqlim şəraiti** +5C°-dən +55C°-yə qədər davamlıdır.
**Nisbi rütubət** isə 70%-ə qədərdir.

## Baza komplektləşdirilməsi:

- İdarəedici kompüter
- LCD ekran 17/19”
- Vandallığa qarşı davamlı sensor ekran
- Əsginaslıq kaset ilə əsginas qəbuledici
- Qəbz termoprinteri
- Simsiz modem
- Gözətçi taymer
- Fasiləsiz enerji təchizatı mənbəyi
- MS windows embedded /
- POSready istifadə hüququ

## Opsiyalı komplektləşdirmə:

- İkinci LCD ekran
- Fiskal qeydiyyatçı
- Əsginasların dəstə ilə qəbulu
- Bilet termoprinteri
- Matriks printeri
- Ştrix kodların oxuyucusu
- Maqnit və smart-kartların oxuyucusu

NÖVBƏ GÖZLƏMƏ

# TERMİNALI

STP yerli istehsala dəstək və xaricə sərmayə axınını azaltmaq məqsədilə növbə gözləmə köşkü də istehsal edir. **Beynəlxalq standartlara uyğun** hazırlanan yüksək keyfiyyətli məhsullar yerli bazarın tələbatını tam qarşılaya bilir.

STP növbə gözləmə köşkü şirkətinizin müştəri xidmətləri prosesini sürətləndirməyə kömək edəcək. Bu aparatların tətbiqi müştəri məmnuniyyətinin önəmli dərəcədə artmasına səbəb olur. Bütün bunlar ilə yanaşı növbə gözləmə köşkü xərclərin optimallaşdırılması baxımından da əlverişlidir.

STP müştərinin istəyinə uyğun istənilən parametrli növbə gözləmə köşkü istehsal edə bilir.

Baza komplektləşdirilməsi:

- Windows və ya Linux əməliyyat sistemi
- İndividual dizayn və rəng seçimi
- Toxunma ekran

NGK-V1






# İNFORMASİYA **TERMİNALI**

Bu model 10 ildir ki, şirkətimiz tərəfindən istehsal edilir. O, özünü layihələrin reallaşdırılması zamanı biznes-tələblərin həyata keçirilməsinin çox da baha başa gəlməyən etibarlı həlli kimi tanıtmışdır.

İnfoKiosk proqram təminatı ilə birlikdə Siz aşağıdakıları təşkil etmək imkanını əldə edirsiniz:

- İctimai qəbul otağını
- Malların kataloqunu
- Virtual ekspozisiyanı
- Soraqça sistemini

və bir çox digər həlləri

İstifadə sahəsi:

- Banklar
- Dövlət müəssisələri
- Muzeylər
- Kitabxanalar

AVTOMATİK DEPOZİT

# TERMİNALI

## ADT-V1



Qəbul etmə sürəti:
2 saniyədə 1 banknot

Daxil etmə üsulu:
bir-bir əsginaslar

Kasetin tipi və tutumu:
düzücü ilə, 1500 banknot

Xüsusiyyətləri:
masa altında quraşdırma

Seyf:
sındırılmaya qarşı 1-ci davamlılıq sinfi

# TP-200



## BİLET **TERMİNALI**

Bu məhsul sırasında həm qapalı məkanlarda, həm də açıq havada yerləşdirmək üçün modifikasiyalar vardır.

### Xüsusiyyətləri:

- Bank kartları ilə əməliyyatlar
- Əsginasların qəbulu
- Qəpiklərin qəbulu
- Qalığın əsginaslarla qaytarılması
- Qalığın qəpiklərlə qaytarılması
- Biletlərin çap edilməsi
- Qəbzlərin çap edilməsi
- İqlimə uyğun quraşdırma və küçə paketi

### Müxtəlif növ xidmətlərin ödənişi:

- Avtomobillərin park edilməsi
- Avtomobillərin yuyulması
- Anbar kompleksinin xidmətləri

və bir çox digər xidmətlər

### İstifadəsi:

- Bank kartları vasitəsilə ödəniş etməklə biletlərin satışı;
- Nağd ödəniş və qalığın qaytarılması ilə biletlərin satışı;
- İnternet vasitəsilə əldə edilmiş biletlərin çap edilməsi.

AVTOMATLAŞDIRILMIŞ TERMİNAL

# KARQOMATİK

**Karqomat** – karqo və poçt göndərişlərinin avtomatlaşdırılmış şəkildə təhvil-təslimini təmin edən ağıllı terminal sistemidir. STP tərəfindən istehsal olunan bu qurğular **24/7** işləmə rejimi, elektron qıfıllar, sensor ekran, idarəetmə paneli və digər modullar ilə təchiz olunur. Modullu quruluşu sayəsində sifarişçiyə uyğun ölçü, rəng və texniki xüsusiyyətlərlə istehsal edilir. Karqomatlar çatdırılma şəbəkələrinin genişləndirilməsi və təslimat prosesinin optimallaşdırılması üçün ideal texnoloji həll təqdim edir.

Müştərinin istəyinə uyğun ölçülərdə ,istənilən dizaynda istehsal edilir. 1mm - 1,5mm - 2mm - 3mm metal lövhələrdən istehsal edilə bilər.Karqomatik antistatik toz boya ilə boyanır. **RAL** kodlara uyğun istənilən rəngdə boya vurula bilər.Mühafizə dərəcəsi (İP) sifarişə əsasən yerinə yetirilir. Bundan əlavə sifarişçinin tələbinə uyğun olaraq əlavə komplektləşdirici hissələr quraşdırıla bilər.

## Üzərində quraşdırılır:

- **10/17** inchlik çöl tipli multi **touch ekran**
- İdarəetmə üçün **mini PC**
- Elektronik **locklar**
- Elektronik lockların **idarə etmə platası**





**TŞ AZ**
1167890-017-2011

YÜKSƏK GƏRGİNLİKLİ

# ELEKTRİK YUVALARI

Elektrik avadanlıqları zavodunda 2010-cu ildən etibarən **YGEY-2010** tipli paylayıcı yuvaların istehsalına başlanılmışdır. Qeyd etmək lazımdır ki, bu yuvalar Azərbaycan Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin təsdiqlədiyi Texniki şərtlər əsasında istehsal olunur.

YGEY-2010 tipli paylayıcı yuvaların gövdəsi sinklənmiş metaldan ibarət olub, vakuum və eleqaz açarları ilə dəstləşdirilir.

YGEY-2010 tipli paylayıcı yuvaların əsas qabarit ölçüləri aşağıdakı kimidir:

| Hündürlüyü | Eni | Dərinliyi |
|---|---|---|
| 750mm | 2250mm | 1630mm |

SM6-24 SERİYALI 10 (6) KV

# MODUL TİPLİ YUVALAR

Elektrik avadanlıqları zavodunda 2011-ci ildən etibaren “SCHNEIDER ELECTRIC” firmasının lisenziyası əsasında SM6-24 tipli paylayıcı yuvalar istehsal olunur.

**SM6-24** tipli yuvalar 10(6) kV-luq paylayıcı şəbəkələrdə (PŞ) ve paylayıcı transformator yarımstansiyalarında (PTY) quraşdırılaraq təşkilatların və ya özəl kompaniyaların, abonentlərin elektrik təchizatında istifadə olunur.

**SM6-24** tipli yuvalar texniki göstəricilərlə yanaşı, insanların və avadanlıqların təhlükəsizliyi baxımından da bütün tələblərə cavab verir. Quraşdırılması, istismarı asan və sadədir.

SM6-24 tipli yuvalar gövdəsi sinklənmiş metaldan ibarət olmaqla:

- Yük açarı ilə
- Vakuum və eleqaz açarı ilə
- Kontaktor ilə
- Ayırıcı ilə dəstləşdirilir






SM6-36 SERİYALI

# MODUL TİPLİ YUVALAR

Elektrik avadanlıqları zavodunda 2013-ci ildən etibarən **“SCHNEIDER ELECTRIC”** firmasının lisenziyası esasında SM6-36 tipli paylayıcı yuvalar istehsal olunur.

**SM6-36** avadanlıqları eleqaz ilə doldurulmuş metal gövdədə yerləşdirilen modul tipli yuvalardır.

**SM6-36** tipli yuvalar orta gərginlikli paylayıcı şəbəkələrdə (PŞ) və paylayıcı transformator yarımstansiyalarında (PTY) quraşdırılaraq elektrik enerjisinin paylanmasında mühüm rol oynayır.

SM6-36 tipli yuvalar texniki göstəricilərlə yanaşı, insanların ve avadanlıqların təhlükəsizliyi baxımından da bütün tələblərə cavab verir. Quraşdırılması, istismarı çox asan və sadədir.

SM6-36 tipli paylayıcı yuvaların aşağıdakı yuva tipləri vardır:

- IM, IMC - Yük ayırıcı yuva
- QM - Qoruyucu ilə kombinasiya edilmiş yük ayırıcı yuva
- DM1-A, DM1-D - Bir ayırıcı açarlı yuva
- DM2 - 2 ayırıcı və 1 açarlı yuva
- CM, CM2 - Gərginlik transformatorlu ölçü yuvası
- SM- Ayırıcı yuva

NEX 17,5 Seriyalı 10 (6) kV

# MODUL TİPLİ YUVALAR

Elektrik avadanlıqları zavodunda 2011-ci ildən etibarən **"SCHNEIDER ELECTRIC"** firmasının lisenziyası əsasında **NEX-17,5 seriyalı** paylayıcı yuvalar istehsal olunur.

NEX 17,5 tipli yuvalar **10(6) kV**-luq PŞ ve PTY-de quraşdırılaraq təşkilatların və ya özəl kompaniyaların, abonentlərin elektrik təchizatında istifadə olunur.

NEX 17,5 tipli yuvalar texniki göstəricilərlə yanaşı, insanların və avadanlıqların təhlükəsizliyi baxımından da bütün tələblərə cavab verir. Quraşdırılması, istismarı çox asan və sadədir.

NEX 17,5 tipli yuvaların gövdəsi sinklənmiş metaldan ibarət olur və çəkməcəli **EVOLİS 10 kV** tipli vakuum açarı ilə dəstləşdirilir.

NEX 17,5 tipli yuvalar 4 bölmədən ibarətdir. Hər bir bölmə bir-birindən metal arakəsmələr vasitəsilə ayrılmışdır.





**TŞ AZ**
1167890-016-2011

ALÇAQ GƏRGİNLİK ÜÇÜN

# ELEKTRİK DOLABLARI

**AGED** (alçaq gərginlikli elektrik dolabları) elektrik avadanlıqlarının istehsalı sahəsində elektrik enerjisinin qəbulu, paylanması, artıq yüklənmələrdən və qısaqapanma cərəyanından mühafizə üçün xidmət edən, neytralı torpaqlanmış, **380/220 V** gərginlikli, **50Hs tezlikli**, dəyişən cərəyanlı alçaq gərginlik üçün elektrik dolablarının (AGED) istehsalı da həyata keçirilir.

Bu məhsullar Azərbaycan Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin təsdiqlədiyi texniki şərtlər əsasında istehsal olunur.

Müəssisənin istehsal etdiyi alçaq gərginlikli elektrik dolablarının tipləri bunlardır:

MVCIC12 / MVCOC12 / MVCCC12 / MVCFC12 / MVCMC12 / MVCIC36 / MVCOC36 / MVCCC36 / MVCFC12 / MVCMC36

PRİZMA PRAQMA TİPLİ

# ELEKTRİK DOLABLARI

Prizma praqma tipli 0,4 kV dolablar (Schneider Electric):
Schneider Electric texnologiyasına əsaslanan bu dolablar, enerji sistemlərində yüksək etibarlılıq və effektivlik təklif edir.

14bmg03 / 14 bll 11/ IL-5 / QIL / GL-3 / PQS-3 /
Giriş paylayıcı tipli dolab





Optik qutular



Server dolabları



Yanğın dolabları



Optik qutular



Sənəd dolabları



Paltar dolabları

## BİR VƏ ÇOXYƏRLİ

# SAYĞAC DOLABLARI

Respublikada elektroenergetikanın inkişafı abonentlərin keyfiyyətli və fasiləsiz elektrik enerjisi ilə təminatını daha da ön plana çıxarmışdır. Ayrı-ayrı bölgələrdə, rayon və şəhərlərdə yeni-yeni yaşayış massivlərinin salınması ilə əlaqədar olaraq son illərdə respublikada sayğaclaşma prosesi daha geniş şəkildə həyata keçirilməyə başlanmışdır.

Sayğaclaşma prosesinin geniş vüsət alması ilə əlaqədar olaraq elektrik avadanlıqları zavodunda son vaxtlarda bir və çoxyərli sayğac dolablarının istehsalı da artan templə davam etməkdədir. Zavodda 1, 2, 6, 8, 10, 12, 16 yerli sayğac dolabları istehsal olunmaqdadır.

Müxtəlif qabarit və ölçülərə malik olan bu dolabların gövdəsi toz boya ilə rənglənmiş poladdan hazırlanır ki, bu da onun uzunömürlüyünə, sayğaca kənar müdaxilələrin qarşısının alınmasına təminat verir.

MÜXTƏLİF ÖLÇÜLÜ

# KABEL KANALLARI

Bu kanallar kabelləri mexaniki ziyan və ətraf mühit təsirlərindən qoruyur. Perforasiya edilmiş və perforasiya edilməmiş kabel kanalları müxtəlif aksesuarlarla (döngə, birləşdirici, keçid, T parçası, dördtərəfli keçid) təmin olunur və müxtəlif endə, hündürlük və qalınlığda olur.

Nərdivan tipli kanal iki yan profildən və onların birləşdirən dayaqlardan ibarətdir (məhsulun modifikasiyasından asılı olaraq dayaqlar arası məsafə də fərqli ola bilər). Çox sayda kabellər və ya ağır kabellərin çəkilməsi üçün istifadə olunan ən davamlı konstruksiyadır. Nərdivan tipli kabel kanalının konstruksiyası kabelin yaxşı havalandırılmasını təmin edir.

Uzun xidmət müddəti və hər hansı bir mürəkkəb texniki xidmətə ehtiyacı olmayan bu kabel kanalları, korroziyaya, atmosferə və digər təsirlərə qarşı dayanıqlıdır. Sinklənmiş poladdan hazırlanmış kanallar qapalı sahədə, qaynar sinklənmiş kabel kanalları açıq sahədə və paslanmaz poladdan hazırlanmış kanallar isə aqressiv sahədə istifadə edilir.

Hazırlanan kabel kanalları BS EN 61537:2002, IEC 61537:2001 və ГОСТ Р 52868-2007 standartlarına cavab verir.



# KEYFİYYƏTƏ NƏZARƏT

## ELEKTRİK AVADANLIQLARI İSTEHSALI

**Elektrik avadanlıqları** zavodunda "Schneider Electric" şirkətinin lisenziyası əsasında NEX 17.5, SM6-24, SM 6-36 seriaylı modul tipli yuvalar istehsal edilir. Həmin şirkətin lisenziyası ilə istehsal edilən məhsulların Azərbaycan və MDB məkanında analoqu yoxdur. İstehsal olunan hazır məhsulların yekun testləri ABŞ istehsalı olan sınaq laboratoriyasında həyata keçirilir.

EAZ məhsulları dünya standartlarına tam cavab verir. Belə ki, müəssisədə **İSO 9001:2008**, **OHSAS 18001:2007**, **Schneider Electric Certificate**, Rusiya və MDB ölkələrində tələb edilən **ГОСТ** standartları mövcuddur.

**Hazır məhsulların yekun testləri ABŞ istehsalı olan sınaq avadanlıqları ilə təchiz olunmuş və akkreditasiya edilmiş laboratoriyada həyata keçirilir.**









CERTIFICATE OF CONFORMITY



CERTIFICATE OF CONFORMITY



CERTIFICATE OF CONFORMITY

# ƏLAQƏ

H.Z. Tağıyev qəsəbəsi,
Sumqayıt, Azərbaycan AZ5022

***0990**

info@stp.az / info@stp.az




STP sənaye tələblərinə cavab verən istehsal imkanları və keyfiyyətə əsaslanan yanaşması ilə müxtəlif sahələrdə fəaliyyət göstərən şirkətlərlə əməkdaşlıq edir.

Müasir texnologiyalarla təchiz olunmuş avadanlıqlarımız və çevik istehsal infrastrukturumuz, tərəfdaşlarımıza yüksək keyfiyyətli və funksional həllər təqdim etməyə imkan verir.

Sınaqlardan keçirilmiş sistemlərimiz və peşəkar komandamız əməkdaşlığın etibarlı əsaslar üzərində qurulmasına şərait yaradır.

Əgər Siz də istehsalda sabitlik və funksionallıq axtarırsınızsa, STP ilə əməkdaşlıq imkanlarını dəyərləndirə bilərsiniz.






# 15 kVA-dan 400 kVA-a

qədər
gücə malik

**SƏNAYE GENERATORLARI**








STP